# Gənclik Liderin ətrafında sıx birləşərək əminliklə gələcəyə addımlayır



*Azərbaycan gəncinin vətənpərvər ruhda böyüməsi, sağlam və savadlı vətəndaş kimi yetişməsi, idarəetmə sistemində önə çəkilməsi dövlətin gənclər siyasətinin əsas mahiyyətini təşkil edir. 1969-cu ildə ulu öndər Heydər Əliyevin birinci dəfə hakimiyyətə gəldiyi dövrdən başlayan bu xətt indi də davam etdirilir. Hələ sovet dövründə ulu öndər gənclərimizin peşəkar kadr kimi yetişməsinə, keçmiş müttəfiq respublikaların nüfuzlu ali məktəblərində təhsil almalarına, müxtəlif vəzifələrə irəli çəkilməsinə xüsusi diqqət yetirirdi.*

1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra da gənc nəslə diqqət dövlət siyasətinin əsas prioritetlərindən birinə çevrildi. Həmin dövrün xaotik vəziyyəti daha çox gənclərə təsir edə bilərdi. Gəncliyi itirmək isə gələcəyi itirmək demək idi. Uzaqgörən ümummilli lider gəncləri vahid ideologiya ətrafında birləşdirmək işini ən önəmli dövlət siyasətinə çevirdi və gəncləri azərbaycançılıq ideologiyası ətrafında toplaya bildi. "Azərbaycanı gənclər ölkəsi, gəncləri isə Azərbaycanın gələcəyi" adlandıran ulu öndərin həyata keçirdiyi çoxşaxəli gənclər siyasəti sayəsində müsbət nəticələr əldə olundu. Hüquqi və dünyəvi dövlət quruculuğunda gənclərin imkanlarından istifadə edən və onları yüksək vəzifələrə təyin etməklə üzərlərinə böyük məsuliyyət qoyan ulu öndər müxtəlif illərdə gənclərlə bağlı müvafiq sənədlər imzaladı. 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən fevralın 2-si Azərbaycanda Gənclər Günü elan edildi. Həmin vaxtdan etibarən Gənclər Günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda qeyd edilir.

Gənclərə diqqətin daha bir nümunəsi dahi şəxsiyyətin "Prezident təqaüdü"nün verilməsi barədə qərarı oldu. İstedadlı gənclərin təhsilə marağını daha da artırmaq və dəstəkləmək üçün ulu öndər ali məktəblərə qəbul imtahanlarından ən yüksək bal toplamış abituriyentlərlə şəxsən görüşürdü və Heydər Əliyev tərəfindən 1996-cı il 22 iyun tarixində imzalanmış "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" Fərmana əsasən, "Qızıl kitab"a adları yazılmış gənc istedadlara xüsusi təqaüd təsis edildi. Ulu öndərin layiqli davamçısı Prezident cənab İlham Əliyev 2013-cü il 2 iyul tarixli Qərarı ilə ölkədə "Gənclər üçün Prezident mükafatı"nı təsis etdi. Prezident mükafatının elm, mədəniyyət, ədəbiyyat və incəsənət, təhsil, gənclər siyasəti, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq fəaliyyəti sahələrində xüsusi fərqlənən 10 nəfər gəncə ildə bir dəfə 10000 (on min) manat məbləğində mükafatın verilməsi ən gözəl stimul, dəstək və diqqətdir. 2003-cü ildə dünyanın inkişaf etmiş 40-a yaxın ölkəsində 160-a qədər ixtisas üzrə 3000-dən artıq azərbaycanlı gənc təhsil alırdı. Təkcə Türkiyədə dövlət hesabına təhsil alan 700 azərbaycanlı tələbənin hər birinə təqaüd verilməsi üçün ildə 2,4 milyard manat vəsait ayrılmışdı.

Müasir azərbaycançılıq ideologiyası əsasında formalaşan gənclərimiz hər zaman xalqımızın, dövlətimizin etimadını doğruldub. Bu ideologiya ilə tərbiyə alan, böyüyən, püxtələşən gənclərimiz dövlətçilik ənənələrinə, ideologiyasına sədaqət nümayiş etdirirlər. Məhz Vətənə, dövlətə bağlı olan gənclərimiz Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə dünyaya nümunə ola biləcək yeni hərb tarixini yazdılar. 44 günlük Vətən müharibəsində tarix yazan, könüllü olaraq döyüşlərə atılan, ərazi bütövlüyünü qoruyub saxlamaq üçün canından keçən gənclərimizlə fəxr edirik. Onların rəşadəti sayəsində əldə olunan Şanlı Zəfər ölkəmizin ərazi bütövlüyünü bərpa etdi, xalqımız otuz illik həsrətdən sonra tarixi torpaqlarına qovuşdu.

Dövlət başçısı gəncləri aparıcı qüvvəyə çevirmək və onların sosial iqtisadi problemlərini həll etmək məqsədilə 2005-2009-cu illəri əhatə edən "Azərbaycan gəncliyi" Dövlət Proqramını təsdiq edib. Proqrama uyğun olaraq gənclərin sosial müdafiəsi, məşğulluğunun təmin edilməsi, yaradıcılıq axtarışlarının stimullaşdırılması, milli-mənəvi dəyərlərin qorunması, hərbi vətənpərvərlik hissinin gücləndirilməsi, sağlam həyat tərzinin təbliğ edilməsi istiqamətində çox mühüm tədbirlər həyata keçirilib. 2007-ci ilin "Gənclər ili" elan edilməsi, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın






təsdiq edilməsi, habelə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"ı nəticəsində 5000-dən artıq Azərbaycan gəncinin dünyanın nüfuzlu ali məktəblərində təhsil almasına dövlət dəstəyi göstərilib. Məhz bu dəstək sayəsində gənclərin dünyanın 32 ölkəsinin 370-dən çox ən nüfuzlu ali təhsil müəssisəsində təhsil almaları üçün 200 milyon manat vəsait xərclənmişdir. Prezident cənab İlham Əliyev 2022-ci il 28 fevral tarixli Sərəncamı ilə "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı"nı təsdiq etmişdir. Dövlət Proqramı çərçivəsində hər il 500 nəfərədək Azərbaycan Respublikası vətəndaşının xaricdə aparıcı ali təhsil müəssisələrində bakalavriat və magistratura səviyyələrində təhsil alması nəzərdə tutulub. Gənclərin yüksək təhsili, mükəmməl kadr kimi yetişməsi diqqətdə saxlanır. Tələbə kreditlərinin verilməsi ali təhsilə əlçatanlığı təmin edir. Göründüyü kimi, "Qara qızıl"ın insan kapitalına çevrilməsi strategiyasının icrası çərçivəsində gənclərin qabaqcıl xarici təhsil proqramlarına cəlb edilməsi təşkil olunub. Bu dövlət proqramları nəticəsində minlərlə Azərbaycan gənci dünyanın nüfuzlu ali məktəblərində təhsil almağa nail olub. Xaricdə təhsil alan gənclərin böyük əksəriyyəti xalqımıza, dövlətimizə bağlıdır və ölkəmizin inkişafına töhfə verirlər.

Paytaxt Bakı və bölgələrdə fəaliyyət göstərən "Gənclər evi" gənclərin vətənpərvər ruhunda formalaşdırılması və onların sosiallaşmasında mühüm rola malikdir. 2011-ci il 19 dekabr tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu yaradıldı. Fondun qarşısında gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönəlmiş ictimai və sosial əhəmiyyətli, o cümlədən beynəlxalq səviyyədə həyata keçirilən layihə və proqramları qrant şəklində maliyyələşdirmək məqsədi qoyuldu. Prezident cənab İlham Əliyev 2016-cı il 24 fevral tarixində "Gəncə şəhərinin "2016-cı il Avropa gənclər paytaxtı" seçilməsi ilə əlaqədar tədbirlər haqqında" Sərəncam imzaladı. Gənc kadrların irəli çəkilməsi siyasətinin təcəssümü olan "Yüksəliş" müsabiqəsi təsis edildi. Gənclərin İnkişaf və Karyera Mərkəzi (GİKM) 2018-ci ilin noyabr ayında Azərbaycan Respublikası Gənclər Fondunun nəzdində fəaliyyətə başladı. 2009-cu il iyunun 9-da "Könüllü fəaliyyət haqqında" Qanun qəbul edildi və 2020-ci il "Könüllülər ili" elan edildi.

Prezident cənab İlham Əliyev çıxışlarında gənc nəslin milli ruhda tərbiyəsi məsələsini xüsusi vurğulayır: "Gənclər Azərbaycanın gələcək inkişafının əsas təminatçısıdır, çünki ölkələri insanlar idarə edir. İnsanların fikirləri, düşüncələri, cəsarəti, yaxud tam fərqli mənfi xüsusiyyətləri və ölkələrin düşdükləri vəziyyət də böyük dərəcədə bundan asılıdır. Ona görə elə gənc nəsil yetişdirilməlidir ki, həm bilikli, savadlı olmalıdır, həm də Vətənə bağlı olmalıdır. Xarici təsirə boyun əyməməlidir, qürurlu olmalıdır. Tərbiyənin əsas mənbəyi ailə və məktəbdir. Bu məsələ daim diqqət mərkəzində olmalıdır". Cənab Prezidentin işlətdiyi bu tarixi ifadələr gənclər üçün, onları yetişdirənlər üçün yol xəritəsidir.

Bu gün gənclərimizin hərtərəfli dəstəklənməsi dövlətimizin, o cümlədən Birinci vitse-prezident Mehriban xanım Əliyevanın, Heydər Əliyev Fondunun diqqət mərkəzindədir. Leyla və Arzu Əliyevanın daim gənclərin yanında olması, onların təşəbbüslərinə dəstək verməsi, problemlərinin həlli üçün gördükləri işlər təqdirəlayiqdir. Məhz onların timsalında Vətənə, xalqa yararlı olmaq, müstəqil ölkənin quruculuğuna töhfə vermək nümunəsi ulu öndər Heydər Əliyevin "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir" kimi müqəddəs amallarına sədaqətin ifadəsidir. Ümummilli liderin yaratdığı milli ideologiya əsasında formalaşmış gənclərimiz hərb, siyasi və diplomatik meydanda, incəsənət, mədəniyyət və idmanda, elm və təhsildə, ümumiyyətlə, bütün sahələrdə öz sözlərini deyir, böyük uğur qazanırlar. Gənc idmançılarımızın qələbələri və ölkəmizdə keçirilmiş müxtəlif beynəlxalq yarışlar Azərbaycanı bir daha idman ölkəsi kimi tanıtdı. 1997-ci ildən etibarən Azərbaycan Milli Olimpiya Komitəsinin Prezidenti seçilmiş dövlət başçısı cənab İlham Əliyev gənclərin idmana cəlb olunması məsələsinə xüsusi diqqət ayırır. Bölgələrdə 50-yə yaxın Olimpiya İdman Kompleksi yaradılıb, hazırda bu proses davam etdirilir. Bakı şəhərində ən mötəbər idman yarışları təşkil olunur. 2025-ci ildə III MDB Oyunlarına Gəncə şəhəri ev sahibliyi edəcək. Azərbaycanın Bakıdan sonra ikinci ən böyük şəhəri olan Gəncədə bu məqsədlə yeni müasir kompleks də tikilir. Bölgələrdə yarışların keçirilməsi üçün yaradılan şərait gənclərin sağlam ruhda inkişafı üçün dövlət qayğısıdır.

2024-cü ildə Gənclər və İdman Nazirliyi tərəfindən gənclərin müxtəlif sahələrdə bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə hərbi vətənpərvərlik, milli adət-ənənələr, hüquq, peşə, robototexnika, yaradıcılıq, mühəndislik, məşğulluq, simulyasiya, inklüzivlik və könüllülük kimi əhəmiyyətli sahələri əhatə edən 43 düşərgə təşkil olunub. Lənkəran şəhəri 2024-cü ildə Azərbaycanın "Gənclər Paytaxtı" elan olundu. 2025-ci il üçün isə Sumqayıt şəhəri "Gənclər Paytaxtı" seçilib. Təhsilin İnkişafı Fondu və STP Şirkətlər Qrupu Sumqayıtda tələbə qızlar üçün "Zərif mühəndislər" təqaüd proqramı təsis edib ki, bu da gənclərə böyük diqqətin göstəricisidir. Möhkəm təməl üzərində qurulan gənclər siyasəti Azərbaycan dövlətinin güclənməsinə, milli ruhun qorunub saxlanılmasına, Vətənə bağlılığa xidmət edir.

Prezident cənab İlham Əliyevin gənclərə yönəlmiş siyasəti, dəstəyi ildən-ilə daha da güclənir, yeni-yeni sahələri əhatə edir. Bu gün Azərbaycan gənci yeni dövrün yeni reallıqları qarşısındadır. Vətən borcunu ləyaqətlə ödəyir. Ulu öndərin "Çadırlarda doğulmuş uşaqlar gələcəkdə öz torpaqlarının sahibi olacaq, öz torpaqlarında böyüyəcəklər, öz elində-obasında yaşayacaqlar", - fikri reallığa çevrilib. İndi daha böyük reallıqları gerçəkləşdirmək üçün gənclik öz Müasir Liderinə inanaraq, onun ətrafında sıx birləşərək əminliklə gələcəyə addımlayır. Cənab Prezidentin tövsiyələrini əsas götürərək addımlayır: "milli dəyərlərə söykənərək, vətənpərvər ruhda, daha güclü gənclik olaraq" addımlayır.

**Mehriban VƏLİYEVA,**
**Milli Məclisin deputatı.**